**Böyök Britaniya varlılar üçün vergiləri artırır**

Britaniya hökuməti imkanlı vətəndaşlar üçün vergi dərəcələrini saxlamaqla, dövlət büdcəsindən cəmiyyətin digər təbəqələri üçün nəzərdə tutulan sosial xərclərə ayrılan vəsaitlərin həcmini sabit saxlamaq niyyətindədir.

Sentyabrın 23-də Brayton şəhərində liberal-demokratların yığıncağında çıxış edən Britaniya Baş nazirinin müavini Nik Qleqq hökumətin bahalı əmlak və kapitalın artımına yeni vergi tətbiq etmək niyyətində olduğunu bəyan etmişdir.

O qeyd etmişdir ki, «sağlar»ın büdcənin sosial xərclərin azaldılması hesabına formalaşdırılması ilə bağlı ittihamlarına bəhanə verilməyəcəkdir. Nik Qleqq, həmçinin, demişdir ki, onun lideri olduğu liberal-demokratlar Böyük Britaniyada daşınmaz əmlakının ümumi dəyəri 2 milyon funt-sterlinq təşkil edənlər üçün əvvəlki kimi illik 1% həcmində verginin tətbiqini zəruri sayır.

İmkanlı vətəndaşların vergi yükünün artırılması sahəsində mümkün digər addımları şərh edən baş nazirin müavini qeyd etmişdir ki, hökumət kapitalın artımına və yüksək həcmli daşınmaz əmlak əməliyyatlarına vergini artırmağı nəzərdən keçirir.